# “Risalə”nin növbəti sayları

**Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin araşdırmalar toplusu “Risalə”nin 2 cildi nəşr olunub. “Elm və təhsil” nəşriyyatında çapdan çıxmış elmi toplunun baş redaktoru muzeyin direktoru, akademik Rafael Hüseynovdur.**

Jurnalın redaksiya heyəti isə Azərbaycan alimləri ilə yanaşı, Avropa və Asiyanın bir sıra nüfuzlu elmi-tədqiqat müəssisələrinin filoloq və sənətşünas alimlərini əhatə edir.

Məcmunun Azərbaycan, eləcə də Şərq ədəbiyyatşünaslığı və mədəniyyətşünaslığının önəmli məsələlərinə elmi aydınlıq gətirmiş 20-dən artıq məqalənin yer aldığı növbəti 2 sayı da yerli və xarici kitabxanalara, elm və təhsil ocaqlarına göndəriləcək.

Xatırladaq ki, “Risalə” jurnalı 2004-cü ildən etibarən ildə iki dəfə nəşr olunur və məzmunu etibarilə filoloji tədqiqatları (Azərbaycan və dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, mətnşünaslıq və muzeyşünaslıq) elmi ictimaiyyətə və sənətsevərlərə təqdim edir.




Toplunun yeni saylarında muzey əməkdaşlarının, ölkə alimlərinin, eləcə də dissertasiya müdafiəsinə hazırlaşan gənc tədqiqatçıların müxtəlif mövzulara aid elmi məqalələri dərc edilib. Araşdırmalarda klassik və müasir Azərbaycan ədəbiyyatının bir sıra aktual və indiyədək az öyrənilmiş sahələri və mövzuları incələnib.

Jurnal filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır. Toplu Ədliyyə Nazirliyinin mətbu nəşrlərin reyestrinə də daxil edilib.

***Qabil YUSİFOĞLU***
***XQ***

Xalq qəzeti .- 2026.- 18 fevral (№31).- S.16.